Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti http://www.amu.edu.az **Qəzet 1933-cü ildən çıxır** | №-06 (1723) | 31 mart 2021-ci il |

Prezident İlham Əliyev Bakıda 4 saylı DOST Mərkəzinin açılışında iştirak edib

Martın 30-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Binəqədi rayonunda yerləşən 4 saylı DOST Mərkəzinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı mərkəzin binasında yaradılan şəraitlə tanış oldu.

BU SAYIMIZDA

"Novruz bayramını Qarabağın mərkəzində - işğaldan azad olunmuş torpaqlarımızda qeyd etməyimiz böyük xoşbəxtlikdir"

ATU-nun rektoru, professor Gəray Gəraybəyli əsrlərdən bəri yurdumuzda qeyd edilən sevimli Novruz bayramı münasibətilə doğma kollektivin bütün üzvlərini, professor-müəllim heyətini, gənc həkimləri, rezident və tələbələri təbrik edib: "Baharın gəlişi və təbiətin oyanışını təcəssüm etdirən Novruz bayramı qədim və gözəl bayram ənənələri ilə tanınır. Bu bayram sülh, barışıq, həmrəylik və mehriban qonşuluq dəyərlərini təşviq edir.

Bu il hamımız baharın Azərbaycan torpağına gəlişini xüsusi sevinc və şövqlə qarşılayırıq. Çünki uzun illər arzuladığımız kimi nəhayət ki, Novruz bayramını azad Qarabağ torpaqlarında qeyd edə bilirik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ailəsi ilə birlikdə builki Novruz tonqalını Şuşada – Cıdır düzündə alovlandırması ölkəmiz və xalqımız üçün təntənəli və tarixi hadisədir. Bu gün Novruz bayramını Qarabağın mərkəzində - işğaldan azad olunmuş torpaqlarımızda qeyd etməyimiz böyük xoşbəxtlikdir. Qazanılmış zəfərin qorunması və əbədi edilməsi üçün şəhidlərimizin xatirəsini daim anacaq, qazilərimizin əziyyətini heç vaxt unutmayacağıq, onların ailələrinə dəstək olacağıq.

Hər birinizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, bu əziz bayram günlərində sizə bahar əhval-ruhiyyəsi, cansağlığı arzulayıram. Novruz bayramı bütün xalqımıza, millətimizə düşərli olsun!"

ATU və Təbriz Tibb Elmləri Universiteti arasında səhiyyədə innovativ ideyaların tətbiqinə həsr edilmiş vebinar keçirilib

ATU-nun prorektoru nüfuzlu beynəlxalq təşkilatın ordeninə layiq görülüb

Tədris Cərrahiyyə Klinikası və Heidelberg Universitetinin əməkdaşları seminar keçiriblər

ATU və Təbriz Tibb Elmləri Universiteti arasında səhiyyədə innovativ ideyaların tətbiqinə həsr edilmiş vebinar keçirilib

Azərbaycan Tibb Universiteti və Təbriz Tibb Elmləri Universiteti arasında hər iki universitetin rektorlarının iştirakı ilə səhiyyədə innovativ ideyaların tətbiqinə həsr edilmiş vebinar keçirilib.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli nitqində tədbir iştirakçılarını Novruz bayramı münasibətilə təbrik edərək hər kəsə yeni dövrdə uğurlar arzulayıb. Səhiyyə və tibb təhsili üçün kifayət qədər gərgin dönəm olan bu dövrdə innovasiyaların tətbiqi ilə bağlı müzakirələrin aparılmasının önəmini qeyd edib. Professor Gəray Gəraybəyli ATU ilə Təbriz Tibb Elmləri Universiteti arasında daim sıx əməkdaşlıq əlaqələrinin olduğunu xatırladaraq qarşılıqlı səfərlər və birgə elmi tədbirlərin keçirildiyini xatırladıb. Indi isə elmi araşdırmalar yönündə əməkdaşlığın davam etdirilməsini çox sevindirici hal kimi qiymətləndirən ATU-nun rektoru bu sahədə müştərək işlər üçün zəmin olduğunu bildirib.

Təbriz Tibb Elmləri Universitetinin rektoru, professor Məhəmməd Hüseyn Somi çıxışında səhiyyə sahəsində innovasiyalarla bağlı əməkdaşlığın qurulması, birgə layihələrin hazırlanmasının, universitetlər üçün innovasiyalar mərkəzlərinin qurulmasının vacibliyini qeyd edib. Təbriz Tibb Universitetinin ATU ilə uzunmüddətli əməkdaşlıq münasibətlərinin mövcud olması və son illər bu bağların daha da güclənməsindən məmnunluğunu ifadə edən rektor M.H.Somi innovasiya mərkəzinin köməyilə bu əməkdaşlığın üst səviyyəyə qaldırılacağından əminliyini vurğulayıb.

Təbriz Tibb Elmləri Universitetinin Səhiyyənin İnkişafı və İnnovasiyalar Mərkəzinin rəhbəri professor Soodabeh Davaran çıxışında mərkəzin fəaliyyəti haqqında məlumat verib. İlk beynəlxalq vebinarın məhz Azərbaycan Tibb Universiteti ilə keçirilməsindən məmnunluq duyduğunu bildirən professor S.Davaran qeyd edib ki, İranda belə mərkəz ilk dəfə məhz Təbriz Tibb Elmləri Universitetində yaradılıb. Qurumun yaradılmasının əsas məqsədi səhiyyənin inkişafının təmin edilməsi naminə innovativ fikirləri cəlb etməkdir. Xanım S.Davaran gələcəkdə Azərbaycan Tibb Universitetində də belə bir mərkəzin yaradılması üçün əməkdaşlığa hazır olduqlarını da bildirib.

Daha sonra vebinarda səhiyyənin inkişafında innovasiyalarnı tətbiqi ilə bağlı təlimlərin təşkili və müəyyən xidmətlərin təqdim olunması məsələləri müzakirə olunub. Toplantıda, həmçinin, ixtisasartırmaya həsr olunmuş seminarlar, konfrans və simpoziumların təşkili üzrə qarşılıqlı əməkdaşlıq, startapların reallaşdırılması ətrafında da fikir mübadiləsi aparılıb. Birgə konqreslər, təlimlər və yay məktəblərinin təşkili, universitetlər arasında innovasiyalarlın tətbiqinə dair mütəmadi müzakirələrin aparılmasının zəruriliyi diqqətə çatdırılıb.

Qeyd edək ki, vebinarda ATU-nun Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, ATU-nun Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva, həmin kafedranın tədris şöbəsinin müdiri Sevil Mehralıyeva iştirak ediblər.

ATU-nun prorektoru nüfuzlu beynəlxalq təşkilatın ordeninə layiq görülüb

Azərbaycan Tibb Universitetinin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev iki beynəlxalq mükafata layiq görülüb.

Azərbaycanlı professor dünya elm və təhsil sahəsində xidmətlərinə görə BMT-nin İctimai Mükafatlar üzrə Şurasının (UNCOPA) Beynəlxalq Mükafatlar Komitəsinin "Avropa Ordeni" ilə təltif edilib. Qeyd edək ki, İctimai Mükafatlar Şurası (UNCOPA) İsveçrənin Cenevrə şəhərində fəaliyyət göstərən və dünya miqyaslı alimləri müxtəlif nailiyyətlərinə görə dəyərləndirən qurumdur.

Professor Sabir Əliyev bu günlərdə həm də Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü seçilib. ATU-nun prorektoru S.Əliyevə artıq təşkilatın diplomu da təqdim olunub. Diplom Beynəlxalq Elmlər Akademiyasının prezidenti, professor Uolter Kofler və qurumun Azərbaycan bölməsinin rəhbəri Elçin Xəlilov tərəfindən imzalanıb.

Qeyd edək ki, Beynəlxalq Elmlər Akademiyası 1984-cü ildə iki dəfə Nobel mükafatı

laureatı Linus Paulingin təşəbbüsü ilə yaradılıb və onun təsisçiləri dünya miqyasında görkəmli siyasi və ictimai xadimlər olan 119 Nobel mükafatı laureatlarıdır.

Qeyd edək ki, BEA Azərbaycan Bölməsi Azərbaycan xalqının Ümummilli lideri, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəstəyi ilə yaradılmışdır.

UN COUNCIL FOR PUBLIC AWARDS
(UNCOPA)

Mr. Prof. Dr. SABIR JAHAN oglu ALIYEV

was awarded with the EUROPEAN ORDER of HONOR

for his services to the worldwide science and education.

Geneva – SWITZERLAND

Head of Switzerland representation:
Prof. M.Sh. GUZEL

No 146 10.03.2021

ATU-nun mətbuat xidməti

31 Mart - azərbaycanlıların soyqırımı günüdür...

"Bolşevik olan bir müsəlmana belə aman verilmədi. Müsəlmanlara hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaklardan canlarını qurtara bilmədilər".

Tarixdə çox döyüşlər, müharibələr olmuşdur. Bu müharibələrin törədilməsinin başlıca səbəbləri əsasən hər hansı bir dövlətin başqa bir dövlətə torpaq iddiası, var-dövlət hərisliyi, dünya ağalığı xülyası və s. olub. Bu müharibələrdən ən dəhşətlisi isə hər hansı bir millətin, xalqın kökünü kəsmək, Yer üzündən silmək məqsədini güdən müharibələrdir. Ən pisi də odur ki, soyqırımları törədənin özü ustalıqla maskalanır, öz əməlini, vəhşiliyini ört-basdır edir. Dünya ictimaiyyətini çaş-baş salır, əsrlərlə öz məkrli siyasətlərini yürüdür, nəsilləri bu ruhda tərbiyə edir. Məqam gələndə cildini dəyişə bilir, haqlını "günahkar" kimi qələmə verməyə çalışır, özünə tərəfdarlar tapır.

1917-ci il oktyabr çevrilişi və hakimiyyətə kommunistlərin gəlməsi zamanı yaranmış vəziyyətdən istifadə edən erməni millətçiləri və onların cəmləşdiyi "Daşnaktsutyun" partiyası Bakıda və respublikamızın digər yerlərində azərbaycanlılara qarşı mitinqlər keçirməyə başladılar. Ermənilər bütün Azərbaycanı işğal etməyə cəhd göstərirdilər. Onlar bu dəfə Qarabağda yaşayan ermənilərlə birləşib Gəncəyə hücuma hazırlaşırdılar. Lakin 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, Azərbaycanın ərazi bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin başlanması işğalçıların bütün planlarını pozdu.

A.Mikoyanın başçılığı ilə yaradılmış "İnqilabı müdafiə" adı ilə çıxış edən bu quldur dəstələri Bakının ən gözəl memarlıq abidələrindən olan "İsmailiyyə"ni yandırmış, "Açıq söz", "Kaspi", "Baku", qəzetləri redaksiyalarını dağıtmış, "Təzə pir" məscidinin minarələrini isə top atəşi ilə dəlik-deşik etmişdilər.

Təpədən dırnağa qədər silahlanmış erməni əsgərləri müsəlmanların evlərinə basqınlar edərək onları vəhşicəsinə öldürür, körpələrə və qocalara aman vermirdilər. Qadınlar daha ağır şəkildə öldürülürdü. Arxiv materiallarına əsasən qulaqları, burunları kəsilən, orqanları parça-parça edilən 37 qadının meyiti tapılmışdı. N.Nərimanov erməni vəhşilərinin törətdikləri haqqında belə bəhs edir: "Bolşevik olan bir müsəlmana belə aman verilmədi. Müsəlmanlara hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaklardan canlarını qurtara bilmədilər".

Mart hadisələri əslində bolşeviklərin daşnaklarla birlikdə həyata keçirdikləri milli qırğın idi. Bu qırğının əsas təşkilatçısı olan S.Şaumyan özü də 1918-ci il aprelin 13-də RSFSR XKS-ə yazdığı məktubunda etiraf etmişdi: "Biz süvari dəstəmizə birinci silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik... Bizim altı min nəfərə yaxın silahlı qüvvələrimiz var idi... "Daşnaktsutyun"un da üç-dörd min nəfərlik milli hissələri var idi ki, bunlar da bizim ixtiyarımızda idi. Milli hissələrin inkişafı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi, lakin buna yol verməmək mümkün deyildir. Biz bilərəkdən buna yol verdik".

1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Lənkəran və digər ərazilərdə erməni faşistləri 50 min azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar. Həmin hadisə xalqımızın tarixinə qara hərflərlə yazılmışdır.

Ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli fərmanından sonra hər il mart ayının 31-i Mart soyqırımı anım günü kimi qeyd olunur. ■

ATU-nun təşkilatçılığı ilə virusa dair vebinar

Azərbaycan Tibb Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı ilə vebinar keçirilib. "MoreThanDoc" klubu tərəfindən təşkil olunan tədbir "HPV - Peyvənd və Müayinələri" mövzusuna həsr olunub.









150-dən çox iştirakçının qatıldığı vebinarda Hacettepe Universiteti Tibb Fakültəsinin təmsilçisi, Avropa Ginekoloji Onkologiya Dərnəyi İdarə Heyətinin üzvü Doç. Dr. Murat Gültekin çıxış edib. Vebinarda HPV – insan papilloma virusunun növləri, yayılması, ötürülmə yolları, müayinəsi və qorunma üsullarının müasir metodları haqqında ətraflı məlumat verilib.

Toplantıda Azərbaycan, Türkiyə, İran, Kipr və Yunanıstandan tibb tələbələri, tibb bacıları və həkimlər iştirak ediblər.■

ATU-nun mətbuat xidməti

Tədris Cərrahiyyə Klinikası və Heidelberg Universitetinin əməkdaşları seminar keçiriblər

ATU-nun Tədris Cərrahiyyə Klinikası ilə Almaniyanın Heidelberg Universitetinin Maunheim Tibb Mərkəzinin Cərrahiyyə Klinikasının əməkdaşlarının birgə iştirakı ilə növbəti seminar təşkil olunub.

Onlayn formatda keçirilən tədbir kolorektal cərrahiyyədə müasir yanaşmaların müzakirəsinə həsr olunub. Toplantıda bağırsaq xərçəngi ilə bağlı cərrahiyyənin yeni metodları, dünyada və ölkəmizdə kolorektal cərrahiyyənin vəziyyəti, bu sahədəki tibbin son yenilikləri haqqında müzakirələr aparılıb.

ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev, ATU-nun Ümumi cərrahiyyə kafedrasının müdiri, Elçin Ağayev və kafedranın əməkdaşı Elman Əzimov kolorektal cərrahiyyədə azərbaycanlı həkimlərin təcrübəsi haqqında çıxış ediblər. Hər iki tərəfdən iştirak edən mütəxəssislər kolorektal xəstəliklərin müalicəsində yeni yanaşmalar barədə fikirlərini açıqlayıblar.

Qeyd edək ki, tədbir Azərbaycan Tibb Universiteti və Almaniyanın Heidelberg Universitetinin Maunheim Tibb Mərkəzinin Cərrahiyyə Klinikaları arasında imzalanmış memorandum çərçivəsində təşkil olunub. Bu sənəd hər iki klinikanın əməkdaşları arasında müxtəlif formatlı əməkdaşlığı nəzərdə tutur. Gələcəkdə ATU-nun Tədris Cərrahiyyə Klinikası ilə Almaniyanın Heidelberg Universitetinin Maunheim Tibb Mərkəzinin Cərrahiyyə Klinikasının təmsilçilərinin birgə iştirakı ilə bu cür müzakirələr davam etdiriləcək.



ATU-nun İctimai Səhiyyə fakültəsinin rəhbərliyi tələbələri dinləyib

ATU-nun İctimai səhiyyə fakültəsinin rəhbərliyi tələbələrlə növbəti görüş keçirib. Onlayn formatda baş tutan tədbirdə tələbələr onları narahat edən məsələlər barədə fikirlərini fakültə rəhbərliyinə bildiriblər.







Bu dəfəki görüşdə tələbələr onlayn dərslərdə innovativ üsulların tətbiqi, bəzi fənlər üzrə mövzuların bölüşdürülməsi və digər məsələlərlə bağlı fikirlərini bölüşüb, onları maraqlandıran sualları ünvanlayıblar.

Fakültənin dekanı, professor Anar Ağayevin sözlərinə görə, bəzi məsələlərin elə yerindəcə həlli ilə bağlı göstəriş verilib. Tələbələrə təhsil haqqının ödənilməsi ilə əlaqədar müqavilədə nəzərdə tutulan qaydalar da xatırladılıb. Görüş 6 kurs üzrə 42 qrupun nümayəndələri ilə aparılıb.

Qeyd edək ki, ATU-nun İctimai səhiyyə fakültəsinin rəhbərləyi ənənəvi olaraq ayda azı 2 dəfə tələbələrlə görüş təşkil edir, tətbiq edilən yeniliklərlə, tədris prosesinin gedişi ilə bağlı onların fikirlərini öyrənir. Mövcud epidemik şəraitə uyğun olaraq, son dövrlərdə görüşlər onlayn formatda keçirilir.

Əməkdaşımız beynəlxalq konqresdə moderatorluq edib

Türkiyədə Fıtık Dərnəyinin təşkilatçılığı ilə VIII Beynəlxalq Yırtıq Konqresi keçirilib.

COVID -19 pandemiyasının şərtlərinə uyğun olaraq virtual qaydada baş tutan beynəlxalq konqresdə əsasən "Yırtıq əməliyyatında çətinliklər və yeniliklər" mövzusu ətrafında müzakirələr aparılıb. Konqresin gedişində minimal invaziv müdaxilələr, qasıq yırtığı əməliyyatından sonra xroniki ağrı, qarın divarının cərrahi müdaxiləsi kimi bir çox mövzulara da toxunulub. Yırtıq cərrahiyyəsində yeni texnologiyaların tətbiqinə dair ABŞ, Rusiya, Özbəkistan və digər ölkələrdən olan mütəxəssislərin maraqlı məruzələri dinlənilib.

Üç gün davam edən konqresin işində universitetimizi Tələbə Elmi Cəmiyyətinin sədri, tibb elmləri doktoru Müşfiq Həsənov təmsil edib və bir bölümün moderatorluğu ona həvalə olunub. M.Həsənovun təklifi ilə may ayına qədər universitetimizdə müştərək konqresin keçirilməsi qərara alınıb. Bu məqsədlə geniş konfrans proqramının hazırlanacağı, konqresdə nüfuzlu xarici və yerli mütəxəssislərin iştirakının gözlənildiyi vurğulanıb.

Konqresin başqanı professor Hakan Gök bütün çıxışçılara və iştirakçılara göstərdikləri fəallığa görə öz təşəkkürünü bildirib.

Konfransın işi ilə əlaqədar sosial şəbəkələrdə məlumatlar yerləşdirilib, Youtube kanalında videolar yayımlanıb.

24 mart – Ümumdünya Vərəmlə Mübarizə Günüdür

Vərəmin müalicəsi və profilaktikası istiqamətində yeniliklərə nail olmaq məqsədilə hər il martın 24-ü Ümumdünya Səhiyyə Təşkilatı və Vərəmlə Ümumdünya Mübarizə Birliyinin təşəbbüsü ilə Ümumdünya Vərəmlə Mübarizə Günü qeyd edilir.

Bu gün dünyada minlərlə insanın diqqəti vərəm probleminə yönəldilir, əhali qlobal vərəm epidemiyası ilə bağlı məlumatlandırılır, vərəmin profilaktikası, müalicəsi məqsədilə bir sıra tədbirlər keçirilir, vərəmlə mübarizədə məlumatlılığın artırılmasına, gələcək inkişafın siyasi və sosial təminatının möhkəmləndirilməsinə imkan yaranır.

Bu gün ölkəmizdə də müxtəlif tədbirlərlə qeyd olunur və əhali arasında geniş maarifləndirilmə aparılaraq bildirilir ki, vərəm çöpləri ilə hər kəs üzləşə bilər. Lakin vərəm mikobakteriyaları ilə yoluxmuş insanların xəstələnməsi mütləq deyil. Xəstəliyin inkişaf etməsi üçün immunitetin zəifləməsi, müntəzəm və düzgün olmayan qidalanma, tez-tez soyuqdəymə hallarının olması gərəkdir.

Müasir təbabətin köməyilə 70-80 faiz hallarda vərəmin tam müalicəsinə nail olmaq mümkündür. Müalicənin uğurlu başa çatması isə çox vaxt pasiyentin özündən asılıdır. Xəstəliyin ilk əlamətləri aşkarlanan zaman pasiyent tibbi yardıma müraciət edərsə, müalicə dövründə həkimin bütün məsləhətlərinə əməl edərsə, tam sağalma şansı böyük olar.

Eyni zamanda, bu gün aparılan maarifləndirilmədə o da vurğulanır ki, uşaqlara vurulan vərəm əleyhinə peyvənd (KJB) vərəmə yoluxma riskini azaldır və ən əsası, vərəm infeksiyasının digər ağır formalarının baş verməsinin qarşısını alır. Bu peyvəndin aparılmasına qarşı çıxan valideynlər bununla övladlarını ciddi təhlükəyə atırlar.

21 mart – Beynəlxalq Daun Sindromu Günüdür

Bu gün ilk dəfə 2006-cı ildə Cenevrə Universitetində qeyd edilib. Palma de Mayorkada keçirilən Daun sindromu üzrə VI Beynəlxalq Simpoziumda Avropa və ümumdünya assosiasiyaların təşəbbüsü ilə martın 21-i Beynəlxalq Daun Sindromu Günü elan olunub.

Günün təsis edilməsində əsas məqsəd cəmiyyətin diqqətini bu məsələyə yönəltmək, maarifləndirmə tədbirlərinin aparılmasına şərait yaratmaqdır. Bu gün aparılan təbliğatatda vurğulanır ki, Daun sindromlu uşaqların zehni inkişafına erkən dövrdən başlamaq və 4-5 yaşına qədər çox ciddi yanaşmaq lazımdır. Onların sevgi, diqqət və ünsiyyətə böyük ehtiyacı var, çünki digər uşaqlarla müqayisədə onlar valideynlərinə daha çox bağlı olurlar.

Bunun başlıca səbəbi həmin uşaqların dostluq münasibətlərinə üstünlük verməyidir.Daun sindromlu uşaqların xüsusi dərnək, bölmə və məşğələlərdə iştirakı çox faydalıdır. Burada onlar ümumbəşəri dəyərlər, azad və sərbəst inkişaf, vətəndaş tərbiyəsi, tolerantlıq, azadlıq və insan hüquqlarına hörmət öyrənirlər.

#beynəlxalq #daun #sindromu #günü #21mart

ATU-nun mətbuat xidməti

II Müalicə-profilaktika fakültəsinin rəhbərliyi tələbələrlə görüşüb

II Müalicə-profilaktika fakültəsinin rəhbərliyi ilə I kursun qrup nümayəndələri və müəllimlər arasında görüş keçirilib. Görüşdə I kursda təhsil alan yerli və xarici tələbələr, həmçinin, kurs üzrə fənləri tədris edən kafedraların müdirləri və tədris hissə müdirləri iştirak ediblər.

Görüşdə fakültənin dekanı, dosent İsrail Məhərrəmbəyli çıxış edərək bildirib ki, tədris Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları" üzrə aparılır.

Bu qaydalar Ümumdünya Səhiyyə Təşkilatının "COVID-19-un yayılması ilə əlaqədar təhsil müəssisələrində sağlamlığın qorunması tədbirlərinə dair tövsiyələr"i və Azərbaycan Respublikasında COVID-19 infeksiyasına qarşı aparılan profilaktik və epidemioloji tədbirlər üzrə əldə edilmiş təcrübələr əsasında hazırlanıb.

Tələbələr əsasən aralıq qiymətləndirmə, sərbəst işlərin formatı barəsində suallar səsləndiriblər. Eyni zamanda, mühazirə dərslərinin distant formada keçirilməsinin yaratdığı çətinliklərdən danışıblar. Həmçinin, qeyd olunub ki, mühazirələrin videoçarx şəklində təqdim olunması bu ma-terialları yenidən dinləmə şansı yaradır. Xarici tələbələr dərs vəsaitləri, mühazirə materialları ilə bağlı narahatlıqlarını da bölüşüblər.

Görüş zamanı İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri vəzifəsini icra edən dosent Anar Abdullayev, Sitologiya, histologiya və embriologiya kafedrasının tədris hissə müdiri, baş müəllim Gülşən Mehrəliyeva, Tibbi biologiya kafedrasının tədris hissə müdiri, dosent Leyla Süleymanova, İctimai fənlər kafedrasının tədris hissə müdiri, baş müəllim Şahnabat Akimova onlara ünvanlanan sualları ətraflı cavablandırıblar.

Dekan İsrail Məhərrəmbəyli, dekan müavini Sevinc Məhərrəmova tələbələr və müvafiq kafedralar tərəfindən verilən tövsiyələrin müzakirə olunacağını bildiriblər.

ATU-nun mətbuat xidməti





Tələbələrimizin fəxarət dolu könüllülük fəaliyyəti

ATU-nun tələbələri Bakı və bölgə xəstəxanalarında yaralı hərbçilərə şərəflə xidmət göstəriblər

LEYLA QULİYEVA: "BİZ XALQ OLARAQ BU VƏTƏN ÜÇÜN HƏR ŞEY ETMƏYƏ, HƏTTA İGİDLƏRİMİZ KİMİ CANIMIZDAN, QANIMIZDAN KEÇMƏYƏ DƏ HAZIRIQ"

II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Leyla Quliyeva 10 noyabr - 5 dekabr tarixləri arasında "Vətən Müharibəsi" qazilərinə ATU-nun Tədris Cərrahiyyə Klinikasında könüllü yardım edib. Çox ağır yaralanmalarına, hətta bəzilərinin fiziki məhdudiyyət qazanmasına baxmayaraq, hər bir qazimizin sağlamlıqlarına qovuşandan sonra yenidən Vətənə xidmət etmək istədiklərinin şahidi olduğunu deyir: "Həkimlərin, tibb bacılarının və digər tibb personalının onlara göstərdiyi isti münasibətin, hətta balacaların göndərdiyi rəsmlərin və məktubların yaralılarda necə ruh yüksəkliyi yaratdığının şahidi oldum. Həkimlərimiz, tələbələrimiz, adi vətəndaşlarımız müharibə ərzində əllərindən gələn yardımı əsirgəmədilər. Bu bir daha göstərdi ki, biz xalq olaraq bu Vətən üçün hər şey etməyə, hətta igidlərimiz kimi canımızdan, qanımızdan keçməyə də hazırıq". ■

ORXAN OVÇİYEV: "BU ŞANLI VƏTƏN MÜHARİBƏSİNİN ARXA CƏBHƏ İŞTİRAKÇISI OLDUĞUM ÜÇÜN ÖZÜMÜ ŞANSLI HESAB EDİRƏM"

II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Orxan Ovçiyev Vətən Müharibəsi başlayan gündən yaralanmış herbçilərimizə, qazilərimizə Bakı şəhərində yerləşən "Yeni klinika", "Ege hostipal", "Caspian İnternational Plaza" və ATU-nun TCK-da könüllü olaraq tibbi xidmət göstərib: "Bu qürurlu və unudulmaz 44 gün ərzində Vətən torpaqlarında yetişən yüzlərlə qəhrəman, yüzlərlə mərd, şücaətli oğullar gördüm və tanış oldum. "Hər şey Vətən" üçün ifadəsinin sözün əsl mənasında necə məğrurluqla deyildiyindən qürur duydum. Şükürlər olsun ki, tibbi yardım gostərərək onlarla qazimizi ayağa qaldırdıq. Bu şanlı Vətən Müharibəsinin arxa cəbhə iştirakçısı olduğum üçün özümü şanslı hesab edirəm". ■

MƏLƏK BÖYÜKKİŞİYEVA: "ŞANLI QƏLƏBƏMİZLƏ NƏTİCƏLƏNƏN 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ BÜTÜN DÜNYAYA NECƏ CƏSUR, MƏRD, GÜCLÜ, MƏRHƏMƏTLİ XALQ OLDUĞUMUZU BİR DAHA SÜBUT ETDİ"

II Müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Mələk Böyükkişiyeva oktyabrın 7-dən noyabrın 9-a qədər Respublika Klinik Xəstəxanasında Travmatologiya və ortopediya şöbəsində qazilərə könüllü olaraq tibbi yardım göstərib. Bundan başqa, bəzi yaralıların əməliyyatında peşəkar həkimlərin assistentliyini də edib: "Qazilərimiz ön cəbhədə vətənimiz üçün, xalqımız üçün öz canlarını ortaya qoymuşdular. Onlara bacardığım qədər kömək etməyi isə bir tibb işçisi, gələcəyin həkimi olaraq özümə borc bildim. Qolunu, ayağını, gözünü itirmiş qazilər var idi. Amma hamısı cəbhədə olmadıqları üçün çox narahat idilər. Yenidən döyüşməyə getmək istəyirdilər. "Qardaşlarımız cəbhədədir, döyüşdədir. Biz burada olmamalıyıq" deyirdilər. Şanlı qələbəmizlə nəticələnən 44 günlük Vətən müharibəsi bütün dünyaya necə cəsur, mərd, güclü, mərhəmətli xalq olduğumuzu bir daha sübut etdi". ■

Səhiyyə Nazirliyinin baş allerqoloqu Lalə Allahverdiyeva: "İstənilən peyvəndləmə üçün əsas əks-göstəriş xəstəliyin kəskinləşməsi və nəzarətə alınmayan gedişinin olmasıdır"

Səhiyyə Nazirliyinin Bakı şəhəri üzrə baş allerqoloqu, ATU-nun Allerqologiya və immunologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyeva allergik xəstələrin COVID-19 xəstəliyinə yoluxma zamanı baş verə biləcək ağırlaşmalarından və peyvəndlənmənin hansı hallarda aparıla biləcəyi haqqında müsahibə verib.

- COVID-19 allergiyadan əziyyət çəkən xəstələrə necə təsir edir?

- Dünya üzrə aparılmış son tədqiqatların nəticələri göstərdi ki, respirator allergiya və bronxial astmadan əziyyət çəkən xəstələr COVID-19-un ciddi və həyati təhlükəli formaları ilə xəstələnməyə bilərlər. Əldə olan məlumatlara görə, koronavirus infeksiyası COVID-19 üçün risk qrupunda olan ağır dərəcəli, nəzarət olunmayan bronxial astma istisna olmaqla, digər allergik xəstəliklərin gedişini ağırlaşdırmır. SARS-CoV-2 koronavirusu bronxial astmanın kəskinləşməsi üçün triggerdir və ağır pnevmoniyaya səbəb ola bilər. Ağır dərəcəli, nəzarət olunmayan bronxial astma COVID-19 ilə xəstələnmiş şəxslərdə daha ağır nəticələrə gətirib çıxara bilər. Bu səbəbdən, allergiyası olan pasiyentlərdə koronavirus infeksiyasının ən yaxşı profilaktikası elə allergiyanın özünün müalicə edilməsidir. Xəstələr allergiya əleyhinə bazis terapiyanı almalıdırlar, bu da xəstəliyi nəzarətə almağa və ağırlaşmalardan qaçmağa imkan verər.

- Allergiyadan əziyyət çəkən xəstələr koronavirus üçün risk qrupuna aiddirmi?

- Allergiyadan əziyyət çəkən xəstələr COVID-19-un inkişaf etməsinə görə risk qrupuna daxil deyildirlər, ona görə ki, belə xəstələrin tənəffüs yollarının hüceyrələrində AÇF2 (angiotenzin çevirici ferment-2) geninin ekspressiyasının azalması müşahidə olunur. Lakin burada ağır dərəcəli, nəzarət olunmayan bronxial astma ilə olan və COVID-19-un geniş yayılmasına görə yüksək risk qrupunda olan xəstələr istisna təşkil edirlər.

Virus xəstəlikləri və COVID-19 allergiyanın simptomlarını ağırlaşdıra bilər. Bu, respirator allergiya – bronxial astma, allergik rinitlər və pollinoz olan xəstələrə aiddir. Bu qrup xəstələrdə burun-udlağın iltihablaşmış selikli qişası bakteriya və viruslara, o cümlədən koronavirusa görə daha həssasdır. Virus iltihablaşmış selikli qişadan asanlıqla orqanizmə daxil olur və xəstədə allergiyanın gedişini ağırlaşdırır. Digər bir klinik mənzərə də ola bilər. Məsələn, xəstə bronxial astmanın remissiya mərhələsində idi, lakin, koronavirus infeksiyasına yoluxdu. İnfeksiya tənəffüs yollarının selikli qişasının virus mənşəli iltihabına səbəb oldu. Allergenlərin zədələnmiş selikli qişadan keçməsi artır və biz beləcə allergik iltihabın kəskinləşməsini izləyə bilərik.

- COVID-19 xəstəliyinin əlamətləri ilə allergiya əlamətləri bir-birindən necə fərqlənir?

- Respirator allergiyanın (atopik bronxial astma, allergik rinit, pollinoz) və koronavirus infeksiyasının simptomları həqiqətən də çox oxşardır. Bu simptomlar aşağıdakılardır: tənəffüsün çətinləşməsi, təngnəfəslik, öskürək, rinoreya, asqırma, burun və boğazda qaşınma, qıcıqlanma, gözlərdə qaşınma. Əgər bu simptomlara yüksək hərarət, başağrısı və boğazda ağrı, ümumi halsızlıq və mialgiya, quru öskürək, iy və dadbilmənin itirilməsi də qoşularsa, onda mütləq həkimə müraciət etmək və COVID-19-a görə müayinədən keçmək lazımdır.

COVID-19-un ağır gedişinin əlamətləri bunlardır: tənəffüs çatmamazlığının qısa müddətdə proqresivləşməsi, inspirator təngnəfəsliyin güclənməsi, pulsoksimetriyanın məlumatlarına görə oksigenin saturasiyasının azalması (93%- dən aşağı). Belə xəstələrdə kompyuter tomoqrafiyası ilə müayinə zamanı ağciyər toxumasında alveol səviyyəsində müxtəlif patoloji dəyişiklikləri əks etdirən "buzlu şüşə" simptomu görünür. Bu cür əlamətlər allergik xəstəliklər üçün səciyyəvi deyil. Pollinozu COVID-19 xəstəliyindən fərqləndirən əsas cəhətlər pollinozun mövsümi xarakterli olması və simptomlarının antiallergik dərman vasitələrinin istifadə edilməsi ilə aradan qalxmasıdır.

- Allergiyadan əziyyət çəkən insanların istifadə etdikləri antihistamin preparatları immun sistemini zəiflədə bilərmi?

- Antihistamin preparatlar allergik xəstəlikləri olan xəstələrin immun sistemini heç bir şəkildə zəiflədə bilməz. Koronavirus infeksiyasının və COVID pnevmoniyasının müalicəsində antiviral preparatlar, antibiotiklər, antikoaqulyantlar, hormonlar, vitaminlər istifadə olunur. Bütün bu preparatlar, allergiyası olan xəstələrdə koronavirus infeksiyası zamanı toksikodermiya və ya övrə şəklində təzahür edən dərman allergiyasına səbəb ola bilər. Belə xəstələrə eyni zamanda çox sayda dərmanları ehtiyatla təyin etmək lazımdır. Bu, xüsusilə də antibiotik və vitaminlərə aiddir.

- Ən çox verilən suallardan biri: allergiyası olan insanlar COVİD-19 peyvəndi vurdura bilərmi?

- Allergik xəstəliklər peyvəndlənmə, o cümlədən də COVID-19 əleyhinə peyvəndləmə üçün mütləq əks-göstəriş deyil. İstənilən peyvəndləmə üçün əsas əks-göstəriş xəstəliyin kəskinləşməsi və nəzarətə alınmayan gedişinin olmasıdır. Şəxsi kliniki təcrübəmi rəhbər tutaraq və allerqologiya, infektologiya, vaksinologiyada olan biliklərimə əsaslanaraq deyə bilərəm ki, əgər allergik xəstəlikləri olan şəxslərdə farmakoterapiya fonunda xəstəliyin gedişini nəzarətə almaq mümkün olmuşdursa, onda peyvəndlənmə, o cümlədən də COVID-19 əleyhinə peyvəndlənmə üçün heç bir əks-göstəriş yoxdur.

Peyvəndlənməyə mütləq əks-göstəriş əvvəllər yeridilmiş digər peyvənd və ya zərdablara qarşı allergik reaksiyaların, peyvəndin tərkibinə daxil olan komponentlərə qarşı ağır sistem və anafilaktik reaksiyaların olmasıdır. Peyvəndlər və ya inyeksiya şəklində olan dərman preparatları ilə bağlı olmayan digər allergik reaksiyalar COVID-19 əleyhinə peyvəndlənmənin aparılmasına əks-göstəriş deyil.

Allergik xəstəliyin kəskinləşməsi peyvəndlənmənin aparılmasına müvəqqəti əks-göstərişdir. Xəstəliyin kəskin əlamətlərini aradan qaldırmaq və remissiya dövründə peyvəndlənmək lazımdır.

Müsbət allergik anamnezi və əvvəllər dərman preparatlarına qarşı qeydə alınmış ağır allergik reaksiyaları olan xəstələr öz şəxsi həkim-allerqoloqlarının tövsiyələri üzrə peyvəndlənirlər. Belə xəstələrə peyvəndlənmə dövründə antihistamin preparatlardan biri təyin edilir. Belə xəstələri peyvəndləmədən sonra ən azı 2 saat müddətində müşahidə etmək lazımdır – bu anafilaksiya tipi üzrə həyati təhlükəli reaksiyaların inkişaf etməsinin maksimal mümkün müddətdir. Peyvəndlənmə kabinetləri anafilaktik reaksiyaların inkişaf etməsi hallarında xəstəyə yardım etmək üçün lazım olan bütün vasitələrlə təchiz edilməlidir. Düzgün aparılmış peyvəndləmənin effektivliyi hər xəstəyə individual yanaşmadan irəli gəlir.

ATU-nun dosenti plastik cərrahların elmi konqresində iştirak edib

Martın son günlərində plastik cərrahiyyə sahəsində maraqlı beynəlxalq tədbir keçirilib. Dünyanın hər yerindən tanınmış cərrahların qatıldığı toplantıda ölkəmizi Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyə kafedrasının dosenti Nigar Sultanova təmsil edib.





Doktor N.Sultanovanın sözlərinə görə, martın 27-28-də ISAPS təşkilatının (International Society of Aesthetic Plastic Surgeons – Plastik və Estetik Cərrahların Beynəlxalq Cəmiyyəti) təşəbbüsü ilə ümumdünya bilik marafonu keçirilib. 48 saat ərzində onlayn formada davam edən konqresdə dünyanın 91 ölkəsindən 400-dən çox iştirakçı qatılıb.

Plastik cərrahların virtual toplantısında ATU-nun təmsilçisi Nigar Sultanova "New antropometric landmark, measurement and proportion indices for determining the nasal tip width" mövzusunda məruzə ilə çıxış edib. Azərbaycanlı cərrahın məruzəsi iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Türkiyə istehsalı olan COVID-19-a qarşı ilk intranazal peyvəndin bu il ərzində istifadəyə veriləcəyi gözlənilir

Türkiyə istehsalı olan və klinika öncəsi mərhələləri uğurla başa çatdırılan COVID-19-a qarşı ilk intranazal (sprey) peyvəndin bu il ərzində istifadəyə verilməsi planlaşdırılır.

Bu barədə Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank bildirib.

Yerli peyvənd hazırlıqlarındakı son vəziyyət haqqında məlumat verən nazir türkiyəli mütəxəssislər tərəfindən COVID-19-a qarşı hazırlanan və standart vaksinlərdən fərqli olaraq burun yolu vasitəsilə tətbiq olunacaq sprey peyvəndin bu il ərzində istifadəyə veriləcəyini bildirib. Bildirilib ki, Türkiyənin bir neçə dünyaca məşhur universiteti tərəfindən hazırlanan və qısa zaman ərzində birinci faza sınaqlarına başlanacaq bu peyvənd infeksiyanın bədənə daxilolma yollarını izlədiyi üçün digər vaksinlərlə müqayisədə daha təsirli olacağı gözlənilir.

Azərbaycan ÜST-ün Milli Laboratoriyalar şəbəkəsinə üzv olub

Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi (AEM) daim Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə tibbin bütün sahələrində sıx əməkdaşlığını davam etdirir.

Tibb sahəsində müasir inkişaf tendensiyalardan xəbərdar olmaq və yenilikləri Mərkəzin fəaliyyətində tətbiq etmək AEM rəhbərliyinin və mütəxəssislərin əsas məqsədlərindən biridir.

AEM-in respublikamız adına daha bir uğurlu addımı ÜST-ün Bioloji preparatlar üzrə Milli Nəzarət Laboratoriyaları Şəbəkəsinə (WHO-National Control Laboratory (NCL) Network for Biologicals) üzv olmasıdır.

Qeyd edək ki, Bioloji preparatlar üzrə Milli Nəzarət Laboratoriyaları Şəbəkəsi 2016-cı ildə ÜST-ün təşəbbüsü ilə Hollandiyada baş tutmuş növbəti müşavirəsində ÜST tərəfindən prekvalifikasiya edilmiş peyvəndlərin sınağından məsul 21 milli peyvənd nəzarəti laboratoriyasının nümayəndələri tərəfindən yaradılıb. ÜST-ün bu qurumu ilə əməkdaşlıq AEM-in Keyfiyyətin yoxlanılması Laboratoriyası üçün geniş təcrübə mübadiləsi imkanı verəcək.

ÜST koronavirus pandemiyasının yaranma səbəbinə dair hesabatını açıqlayıb

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirus epidemiyasının yaranma səbəblərinə dair hesabatını açıqlayıb.

Yanvar ayında Çinə səfər etmiş ekspert qrupunun rəylərinin də yer aldığı hesabatda epidemiyanın mənbəyinə dair ehtimallara aydınlıq gətirilib. Hesabatda göstərilib ki, SARS-CoV-2 virusu ilkin olaraq yarasalarda yaranıb və insana birbaşa deyil, aralıq daşıyıcı olan digər heyvanlar üzərindən keçib. ÜST pandemiyanın yaranma səbəbi kimi "laboratoriya qəzası" tezisinin mümkünlük ehtimalını isə olduqca aşağı qiymətləndirib.

Rəydə virusun yarasalardan başqa bir heyvana və onlardan da insanlara keçməsinin "ehtimal olunandan daha yüksək" səviyyədə olduğu qeyd olunub. Aralıq daşıyıcının hansı heyvan növünün olması barədə isə elmi dairələrdə ortaq fikir yoxdur və hesabatda da bu suala aydınlıq gətirilməyib.

Qeyd edilməlidir ki, bu ilin yanvar ayında Çinə səfər edən ekspert heyətinin tərkibində zooloqlardan epidemioloqlara qədər müxtəlif ixtisaslar üzrə mütəxəssislər iştirak ediblər. Mütəxəssislər heyəti Çinin Uxan vilayətində yerli həmkarları ilə birlikdə epidemiyanın başlanğıc nöqtəsinin nədən ibarət olmasına dair tezislər araşdırıblar.

2019-cu ilin sonunda dünyada sürətlə yayılmağa başlayan koronavirusa yoluxanların sayı 127 milyon nəfəri ötüb, virusla əlaqədar ölənlərin sayı isə 2,78 milyon nəfərdir.

Aprel ayının əvvəlindən etibarən Bakı, Sumqayıt və Abşeronda tibbi sığortanın tətbiqinə başlanılır

Aprelin 1-dən etibarən Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda rəsmi qeydiyyatda olan əhali icbari tibbi sığortanın xidmətlər zərfinə daxil olan 2550 sayda tibbi xidmətdən istifadə edəcəklər.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən bildirilib ki, bu məqsədlə sözügedən ərazilərdə icbari tibbi sığorta çərçivəsində fəaliyyət göstərəcək dövlət tibb müəssisələrində hazırlıq işləri davam etdirilir.

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin" tabeliyindəki tibb müəssisələrində icbari tibbi sığorta ilə bağlı hazırlıq işlərinin aparılması ilə əlaqədar İşçi Qrupunun üzvü, Yevlax rayon Mərkəzi Xəstəxanasının direktoru Azər İsmayılovun sözlərinə görə, səhiyyənin maliyyə imkanlarının artırılmasına xidmət edən icbari tibbi sığorta sisteminin tətbiqi ilə bağlı tibb müəssisələrində təkmilləşdirilmə işləri aparılır: "Beynəlxalq qaydalara uyğun olaraq, ambulator-poliklinik xidmətlər poliklinikalarda göstəriləcək. Bu məqsədlə xəstəxanaların stasionar şöbələrində ambulator-poliklinik xidmət göstərən heyətin poliklinikalara köçürülməsi işləri icra olunur. Bu əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəlməsinə gətirib çıxaracaq".

A.İsmayılov bildirib ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəhbərliyi ilə təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin keyfiyyətini artırmaq məqsədilə xəstəxanaların qəbul şöbələrinin bazasında Təcili Yardım şöbələri yaradılıb, xəstələrin ağırlıq dərəcəsinə uyğun olaraq çeşidlənməsi üçün "triaj" sistemi təşkil olunub.

Məlumat üçün bildirək ki, yuxarıda qeyd olunan ərazilərdəki tibb müəssisələrində informasiya-kommunikasiya texnologiyaları (İKT) infrastrukturunun qurulması, kompüter avadanlıqları ilə təchizatı və internetə çıxışın təmin olunması üzrə işlər aparılır.

İcbari tibbi sığortanın məlumat bazası, habelə müvafiq proqram təminatı yaradılır. Qəbul və qeydiyyat şöbələrinin işçilərinə tibb müəssisələrinin tam idarəedilməsini təmin edəcək proqram təminatından istifadə qaydaları üzrə təlimlər keçirilir. Proqram təminatı xəstəxanalara müraciət edən vətəndaşların onlayn qeydiyyatının aparılmasına, pasiyentin müraciət etdiyi şöbələr, ona xidmət göstərən həkimlər, təyin olunan müayinə və müalicə (ambulator və stasionar) haqqında məlumatların sistemə daxil edilməsinə imkan yaradır. Habelə, vətəndaşların diaqnozları və laborator analizlərinin nəticələri haqda məlumatları rahatlıqla əldə etmələrinə xidmət edir.

Əlavə olaraq bildirək ki, aprelin 1-dən etibarən təcili və təxirəsalınmaz tibbi yardım istisna olmaqla, vətəndaşlar səhhətində yaranan narahatlıqla bağlı ilk növbədə ailə həkiminə müraciət etməlidir. İlkin səhiyyə müəssisələrinə poliklinika, Ailə Sağlamlıq Mərkəzi və kənd həkim məntəqəsi aiddir. Burada vətəndaşlar anket doldurarak ailə həkimini seçməlidir. Ailə həkimini seçərək vətəndaş tibb müəssisəsinə təhkim olunur.

Ailə həkiminin müayinə və müalicəsindən sonra ixtisaslı tibbi yardıma ehtiyac olarsa, ailə həkimi tərəfindən ixtisaslı həkimə göndəriş verilir. Göndəriş əsasında tibb müəssisəsinə müraciət edən vətəndaş icbari tibbi sığortanın xidmətlər zərfindən yararlana bilir.

Azərbaycanda yaradılan ilk aptek hələ də işləyir

Azərbaycanda 171 ilə yaxın yaşı olan ilk aptek hələ də əhaliyə xidmət edir. O vaxtlar yayılmış vəba, taun kimi xəstəliklərin balıqçılar arasında yayılmasının qarşısını almaq üçün 1850-ci ildə ilk aptek yaradılıb. Özü də balıqçı gəmisində.

XIX əsrdə yaradılmış ilk aptek indi də öz təyinatı üzrə fəaliyyət göstərir.

Sözügedən aptek Neftçalanın Bankə qəsəbəsində yerləşir. Hələ XIX əsrin əvvəllərində rayonun Tatarməhlə kəndi ərazisində fəaliyyət göstərən "Allah mədəni" adlanan məşhur balıqçılıq müəssisəsi yandıqdan sonra 1841-ci ildə vətəgələr xəstəxana, inzibati idarə və yaşayış sahələri ilə birlikdə Bankəyə köçürülür. Yerli əhali ilə yanaşı balıq vətəgələrində yüzlərlə İrandan gələn həmişəri, rus, tatar, gürcü muzdlular çalışır. O vaxtlar vəba, taun kimi xəstəliklərin balıqçılar arasında yayılmasının qarşısını almaq üçün zəruri tədbirlər də görülür. Məhz həmin dövrdə-1850-ci ildə Bankədə, balıqçı gəmisində ilk aptek yaradılır.

O dövrdə qəsəbədə fəhlələr üçün daşdan hörülmüş, taxtadan düzəldilmiş 1-2 mərtəbəli binalar inşa edilib. Artıq kombinatda sıxlıq olduğundan Bankə balıq vətəgəsi xəstəxanası və aptek həmin binaların birində yerləşdirilib.

Azərbaycanda ilk yaradılan aptek əvvəllər olduğu kimi bu gün təkcə qəsəbənin deyil, hətta qonşu kəndlərin də əhalisinə xidmət göstərir. Lakin 170 ildən artıq yaşı olan aptekin yerləşdiyi tarixi binanın əsaslı təmirə ehtiyacı var.

Şizofreniya və bakterial infeksiya arasında əlaqə tapıldı

Şimali Karolina Dövlət Universitetində şizofreniyalı və şizoaffektiv pozuntusu olan insanların bartonellaya (qram mənfi bakteriya) yoluxduqlarını göstərən tədqiqatlar aparılıb.

Ekspertlər bu araşdırmaları infeksiya və psixi pozuntunun əlaqəsini öyrənmək məqsədilə aparıblar. Güman edilir ki, bartonellaya yoluxma psixika ilə bağlı problemlərə səbəb olur.

Bildirilir ki, pişiklər bartonellanın 40 məlum növündən minimum 3-nün daşıyıcısıdır: Bartonella henselae, Bartonella clridgeiae və Bartonella koehlerae.

Stabil və idarə oluna bilən şizofreniyalı və ya şizoaffektiv pozuntulu 17 insandan ibarət, eləcə də 13 sağlam insandan ibarət nəzarət qrup seçilib. Bütün könüllülərin qanında Bartonella infeksiyasının mövcudluğu yoxlanılıb. Həmçinin onlar xəstəliyin

simptomlarının ağırlıq dərəcəsini və bartonella ilə potensial əlaqənin mövcudluğunu göstərən anketləri doldurublar.

Şizofreniyalı 17 pasiyentdən 12-nin qanından Bartonella DNT-si mövcud olub. Nəzarət qrupunda isə 13 insandan yalnız 1-də bu bakteriyaya rast gəlinib.

Biblioterapiya haqqında

Biblio-kitab, terapiya-müalicə deməkdir. Romalılar inanırdılar ki, kitab oxumaq insanın psixi sağlamlığının normada qalması üçün çox faydalıdır. Müalicəvi vasitə kimi Platon və Pifaqor kitabların danılmaz rolunu təsdiqləyirdilər. Riyaziyyatçı alim PİFAQOR ot və musiqi ilə yanaşı, bir sıra xəstəliklərin müalicəsində müxtəlif ədəbiyyatlardan istifadə edirdi.

Misir fironu II Ramzesin kitabxanasının girişində "Qəlb üçün dərman" yazılan lövhəcik asılıbmış.

Tarixçi Diodorus yazırdı ki, Antik Tibb kitabxanasının girişində "ruhun sağalma məkanı" yazısı yazılmışdır.

1272-ci ildə Qahirədə, Əl-MƏNSUR xəstəxanasında Qurani-Kərimdən tibbi müalicə üsulu kimi istifadə olunurdu.

Avropada da kitabla müalicənin başlanğıcını ilk kilsə kitabxanaları qoyub. Bu kitabxanalarda dindarlara rahatlıq və ümid verən dini məzmunlu kitablar saxlanılırdı.

Həkim İ.Dyadkovski özünün "Ümumi terapiya" kitabında mütaliənin psixoterapiyanın əsas vasitələrindən biri olduğunu qeyd edib.

Biblioqraf Rubakin kitabın 3 gücünü qeyd edirdi; bilik, dərketmə və əhval ruhiyyə.

19-cu əsrin əvvəlində Benjamin Raş xəstəxanalarda pasientlərin əyləncəsi və savadlanması üçün ədəbiyyat üçün ayrıca guşənin olması təklifini irəli sürür. Beləliklə, 1900-cü ildə kitabxanalar psixiatrik xəstəxanaların əsas hissəsinə çevrilir.

Terminin adı ilk dəfə 1916-cı ildə Samuel Makkord Kroters tərəfindən çəkilib. 1920-ci ildə ABŞ-ın Alabama ştatının kitabxanaçısı S.Delaney bəzi kitablardan hərbi xəstəxanalarda yaralı əsgərlərin psixoloji müalicəsində istifadə etmişdir.

Biblioterapiyanın əsas cəhəti - əsər cəlbedici olmalı, zövq verməli, əsərin qəhrəmanının pasiyentin vəziyyəti ilə üzləşmiş olması isə daha təsirli və effektiv üsuldu. Məsələn, klassik ədəbiyyat əsəb, nevroz halında göstərişdir. və s.

Biblioterapiya kitab vasitəsilə sağalmaq deməkdir. Ən önəmli faydalarından biri, kitab oxuyan şəxsin özünü tam olaraq qəbul etməsidir.Vaxt keçdikcə insanda özünə inam hislərinin artması öz inkişafa gedən yolun təməlini qoyur. Standart qaydalara tabe deyildir. Digər terapiyalarla eyni məqsədləri daşısa da, bir sıra fərqlər özünü göstərir. Adətən, qrup şəklində mütəxəssis psixoloqun müşayiəti ilə aparılan terapiya növüdür. Ümumiyyətlə biblioterapiya böyüklərdə yazı, uşaqlarda isə oyun terapiyası ilə birlikdə tətbiq edilir. Biblioterapiya 3 mərhələdə tamamlanır. 1. Uyğunlaşma və əks etdirmə. 2.Emosional partlayış. 3.Bütünləşmə. Deməli, Biblioterapiya emosional, psixoloji və fiziki problemlərin müalicəsində kitab mütaliəsini ön plana çəkir (depressiya, bulimiya, obsessiv-kompulsiv pozuntu, insomniya və s.).



■ **Səadət HÜSEYNLİ,**
Əsaslı Kitabxananın biblioqrafı

Həyəcanı və depressiyanı aradan qaldırmağa kömək edən çay

Həyəcanlılıq və depressiya milyonlarla insana əzab verən psixi sağlamlığın ən çox yayılmış problemlərindən hesab olunur. Alimlərin fikrincə, rozmarinlə dəmlənmiş çay bu cəhətdən daha faydalı ola bilər.

Bəzi tədqiqatçılar rozmarinlə dəmlənmiş çayı içmək və ya bu bitkinin komponentlərini buruna çəkməyin əhval-ruhiyyəni yüksəltdiyi və yaddaşı möhkəmləndirdiyi qənaətindədirlər. Tədqiqat işinin nəticələri barədə "Journal of the American College of Nutrition" jurnalında dərc olunmuş materialda rozmarinli çayın həyəcan və depressiya kimi problemlərə qarşı mübarizədə faydalı olması vurğulanır.

Rozmarinlə dəmlənmiş çay, psixi pozuntular zamanı antidepressiv və sakitləşdirici təsir göstərir.

"Complementary Therapies in Clinical Practices" jurnalının dərc etdiyi digər bir materialda bildirilir ki, 500 milliqram rozmarinin bir ay müddətində gündə iki dəfə qəbul edilməsi həyəcanı azaldır, yaddaşı möhkəmləndirir və yuxunun keyfiyyətini yüksəldir. Rozmarin sağlamlıq üçün faydalı xüsusiyyətlərə malikdir.

Rozmarinli çayın tərkibində infeksiyadan qoruyan anti-iltihab və anti-mikrob antioksidanlar var. Bu çay qanda şəkərin səviyyəsini tənzimləyir, beyini qocalmaqdan, neyrodegenerativ xəstəliklərdən, gözləri isə yaşla bağlı olan sarı ləkənin degenerasiyası kimi xəstəliklərdən qoruyur. Rozmarinli çay bağırsaqların sağlam qalmasına imkan yaradır, iltihabı azaldır, həzmi gücləndirir, həm də ürək-damar xəstəlikləri riskini azaldır.

Pomidor, brokkoli və zəncəfil xərçəngin profilaktikası üçün çox faydalıdır

Bəzi qida növləri xərçəngə qarşı mübarizədə faydalı ərzaq məhsulu kimi tanınır. Görən, onlar doğrudanmı panaseyadır?

Brokoli: xırtıldayan tərəvəzlərdə olduğu kimi digər kələm növlərinin tərkibində də qlükozinolatlar var. Heyvan və hüceyrələr üzərində aparılan təcrübələrdə xardal yağının şiş hüceyrələrinin böyüməsinə maneçilik törətməsi müşahidə olunub. "Məsələn, baş kələm prostat və ağciyər xərçənginə təsir edir", - deyə Münhen Onkologiya Mərkəzinin rəhbəri Folkmar Nüssler təsdiqləyir.

Pomidor: paslanın prostat xərçəngi riskini azaltdığı bildirilir. Çoxlu pomidor və ya tomat sousu yeyən kişilərdə bu şişin yaranma ehtimalı pomidor yeməkdən imtina edənlərə nisbətdə 20 faiz aşağıdır. Bunu Amerikalı tədqiqatçıların 2018-ci il üzrə metaanalizi sübut edir.

Zəncəfil: zəncəfilin iltihab əleyhinə inqrediyenti xüsusilə laboratoriya işlərində xərçəng hüceyrələrinə inhibitor təsir göstərir. "Bu təsir yoğun bağırsaq, süd vəzisi, prostat, mədəaltı vəzi və ağciyər də daxil olmaqla müxtəlif karsinomlarda sübut edilmişdir", - deyə Folkmar Nüsler bildirib.

Tədqiqatçılar xərçəng əleyhinə eyni gücdə olan molekulları pomidor, zəncəfil, yaşıl çay, qaragilə, sarımsaq və sitrus meyvələrində də aşkarlayıblar. Ancaq bu cür nəticələrə baxmayaraq, ekspertlər xərçəngdən qorunmağa gəldikdə ehtimal olunan super qidalara diqqət yetirməməyi məsləhət görürlər.

Buna görə də onkoloqlar çəkini azaltmağı, siqareti və alkoqollu içkiləri buraxmağı, düzgün qidalanmağı məsləhət görürlər. Yağ və şəkər çöküntüləri degenerasiya olunmuş hüceyrələrin böyüməsini sürətləndirirlər. Əgər siz boşqabınızı xırtıldayan salatlar, paxlalı tərəvəzlərlə doldursanız, mədənizdə zərərli qidalar üçün daha az yer qalacaq.

Acı bibər yemək ölüm riskini azaldır

Amerika Kardiologiya Assosiasiyası tərəfindən aparılan araşdırmalara görə, acı bibərdən (çili) müntəzəm istifadə etmək ölüm riskini dörddə birə qədər azalda bilir.

Bu barədə "Express" nəşriyyatının çap etdiyi materialda bildirilir. Tədqiqatçılar bir sıra ölkələrdən olan 570 mindən çox insanın məlumatlarını təhlil ediblər.

Mütəxəssislər insanların qidalanma vərdişlərinin bir-biri ilə əlaqə prosesi, təhlükəli xəstəliklərin yaranma riski və ölüm halları ilə maraqlanıblar. Layihənin müəllifləri belə qənaətə gəliblər ki, kəskin qidalara meyillilik ölüm riskini nəzərəçarpacaq dərəcədə azaldaraq həyatı uzada bilər.

"Rasionlarında daim acı bibər olan insanlarda ürək-damar xəstəliklərindən ölmək ehtimalı 26 faiz, xərçəngdən isə 23 faiz azalır", – deyə alimlər qeyd ediblər.

Elmi ekspertlər hesab edirlər ki, səbəbindən asılı olmayaraq, bibər pərəstişkarları arasında ölüm nisbəti dörddə bir qədər az olur. Bibərin istifadəsinin ölüm riskini azaltdığını izah edən ekspertlər, bunu, sözügedən kəskin məhsulun tərkibindəki komponentlərinin təsiri ilə əlaqələndirirlər. Bibərdən müntəzəm istifadə oksidant, iltihab və xərçəng şişi əleyhinə səmərəli təsir etməklə yanaşı qanda qlükoza səviyyəsinin normallaşmasına kömək edir.

Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin II kurs, 119A6b qrup tələbəsi Qaragözova Dilarə Səfa qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, 117R4 qrup tələbəsi Qafarova Fidan Sultan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin VI kurs, 627B qrup tələbəsi Mustafazadə Coşqun Qurbanxan oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Allah rəhmət eləsin!

Şüa diaqnostikası və şüa terapiyası kafedrasının əməkdaşları kafedranın baş laborantı Vəfa Nəcəfovaya bacısı

Gülşən xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKF-də çap olunur və universitet daxilində yayılır.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2250